**DOI: https://doi.org/10.59849/2957-3882.2023.2.102**
**UOT: 327; 930.22**

# SÜLH QURUCULUĞUNUN İNKİŞAF PERSPEKTİVLƏRİ BEYNƏLXALQ MÜNAQİŞƏ HƏLLİ VASİTƏLƏRİNDƏN BİRİ KİMİ

**Elmar İSMAYILZADƏ***

***Açar sözlər:*** *münaqişə, münaqişə tədqiqatları, sülh tədqiqatları, BMT, beynəlxalq, liberal*

## XÜLASƏ

Məqalə sülh quruculuğunun münaqişə həlli sahəsinə gətirdiyi yeniliklər və onun transformasiyası istiqamətində gedən paradiqma dəyişikliklərinə həsr olunub. Münaqişə həlli (conflict resolution) münaqişə tədqiqatlarında münaqişə idarəetməsi (conflict management) anlayışının təkmilləşməsi nəticəsində yaranmışdır. Sülh quruculuğu isə sülh tədqiqatlarında yeni yanaşmadır. Sülh quruculuğu münaqişə həllinin yeni vasitələrindən biridir.

Tədqiqat üç hissədən ibarətdir. Birinci paraqrafda münaqişə həlli konsepsiyasının elementləri və müasir vasitələri öz əksini tapmışdır.

İkinci paraqrafda sülh quruculuğu konsepsiyasının elementləri, uğursuzluq səbəbləri və müasir dövrdə qarşılaşdığı çağırışlar qeyd olunmuşdur.

Nəticə bölməsində isə sülh quruculuğunun konseptual problemləri ortaya qoyulmuş, yeni yanaşmalar dəyərləndirilmiş və problemlərdən çıxış yolu irəli sürülmüşdür.

Tədqiqatın elmi yeniliyi sülh quruculuğunun yeni yanaşmalarının müqayisəli təhlilinin aparılmasından ibarətdir. Tədqiqat beynəlxalq təhlükəsizlik sahəsinə, xüsusilə də münaqişə və sülh tədqiqatlarına tətbiq oluna bilməsi baxımından əhəmiyyətlidir.

## Giriş

Soyuq müharibənin qurtarmasından sonra münaqişələrin daha mürəkkəb xarakter alması münaqişə və sülh tədqiqatlarında yeni anlayışların önə çıxmasına səbəb olmuşdur. Bu anlayışlara münaqişə həlli (conflict resolution) və sülh quruculuğu (peace building) anlayışları da daxildir. Münaqişə həlli anlayışı münaqişənin dərin köklərinə diqqət yetirmək baxımından münaqişə tədqiqatlarında elmi yenilik yaratmışdır. Sülh quruculuğu isə münaqişə həllinin post-münaqişə dövrünün aktuallığının artırılması istiqamətində rol oynamışdır. Eyni zamanda münaqişə həllinin ənənəvi vasitələrinin uğursuz olması sülh quruculuğu anlayışının təkmilləşməsinə gətirib çıxarmışdır.

**Məqsəd:** Sülh quruculuğunun münaqişə həlli ilə qarşılıqlı əlaqəsini müəyyənləşdirmək və sülh quruculuğunun inkişaf istiqamətlərini analiz etməkdir.

**Metodologiya:** Anlayışlar və yanaşmalararası fərqlərin izah olunmasında müqayisə metodundan istifadə olunmuşdur.

Sülh quruculuğu konsepsiyası və praktikası hələ də kifayət qədər inkişaf etdirilməmişdir. Tənqidlər isə daha çox sülh quruculuğu müdaxilələrinin Qərbmərkəzli və imperialist olması iddiası üzərində dayanır. Eyni zamanda, XXI əsrin başlanğıcından bəri beynəlxalq münasibətlərdə baş vermiş bəzi dəyişikliklər (Rusiya və Çinin yüksəlişi və dünya siyasətində qütbləşmənin artması) sülh quruculuğunu bir sıra çağırışlarla üz-üzə qoymuşdur.

* *Azərbaycan Turizm və Menecment Universitetinin doktorantı.*
*Email: ismaylzadelmar@gmail.com*

Liberal sülh quruculuğuna alternativ kimi mütəfəkkirlər sərbəstləşdirici, hibrid, ənənəvi (yerli) və adaptiv sülh quruculuğu modellərini təklif edirlər. Bu sülh quruculuğu modelləri beynəlxalq ictimaiyyət tərəfindən ancaq "yuxarılardan" sülh quruculuğu aparılmasını dəstəkləmir, yerli əhalinin iştirakını da vacib sayır.

**I. Beynəlxalq münaqişə həlli anlayışı**

Soyuq müharibə dövrünün güc əsaslı vasitəçiliyi anlaşmazlıqların qısamüddətli yatırılmasına diqqət çəkmiş, müasir münaqişələrin əsasında duran kimlik, "dövlət uğursuzluğu" və iqtisadi cəhətdən az inkişaf etmək kimi məsələlərə təmas baxımından yetərsiz olmuşdur (1, s.26). Bu mənada münaqişə tədqiqatlarında üç əsas anlayış önə çıxır: münaqişə idarəetməsi (conflict management), münaqişə həlli (conflict resolution) və münaqişə transformasiyası (conflict transformation). Münaqişə həlli anlayışı münaqişə idarəetməsi anlayışından münaqişənin dərin səbəblərinə enməsi baxımından fərqlənir. Münaqişə transformasiyası isə aşağıların konfliktə yanaşmasını dəyişmək və sistemin transformasiyasına gətirib çıxarmağı nəzərdə tutmaqla münaqişə həllindən daha geniş yanaşmadır.

Münaqişə həlli anlayışı münaqişənin səbəblərinin ortaya qoyulması və münaqişə tərəfləri arasında uzunmüddətli münasibətlər qurulmasını ifadə edir (2, s.61). Ümumi mənada münaqişə həlli konfliktin həll olunması istiqamətində töhfə vermək yolunda axtarılan sahələri özündə birləşdirən termindir. Xüsusi mənada isə tez-tez xarici aktorların dəstəyi ilə münaqişə tərəflərini müsbət nəticələr istiqamətində cəmi sıfıra bərabər olan oyunlardan kənara hərəkət etmək üçün tətbiq olunmuş vasitədir. Bu mənada münaqişə həlli dərində olan səbəblərə müraciət etmək və tanımaqla, qarşılıqlı qəbul olunan prosesi tapmaqla və nisbi olaraq harmonik münasibətlər və nəticələri yaratmaqla konflikti təşkil edən davranışlar və maraqların uyğunsuzluğunu həll etməyi tədqiq edir. Münaqişə həlli ilkin olaraq zorakılığın yoxluğu mənasında olan neqativ sülhə nail olmağı özünə məqsəd seçmişdir (3, s.6).

Müasir dövrdə münaqişə həlli vasitələrinə danışıqlar, vasitəçilik, beynəlxalq hüquqi vasitələr, beynəlxalq təşkilatlar, sülhüqoruma, preventiv diplomatiya, humanitar müdaxilə, qeyri-rəsmi diplomatiya, uzlaşdırma və ədalət mexanizmləri və sülh quruculuğunu daxil etmək olar. Soyuq müharibə dövründə ayrı-ayrı dövlətlərin tətbiq etdikləri danışıqlar və vasitəçilik kimi münaqişə həlli vasitələri müasir dövrdə dövlətdaxili münaqişələri tənzimləmədə uğursuzluqlarla üzləşir (1, s.25). Buna görə də bu iki vasitə müasir dövrdə transformasiyaya məruz qalıb. Eyni zamanda, münaqişə həlli praktikasına yeni vasitələr əlavə olunmuşdur.

**II. Münaqişə həllinə yeni yanaşma: sülh quruculuğu**

Sülh tədqiqatlarının tərkib hissəsi olan sülh yaratma (peacemaking), sülh qoruma (peacekeeping) və sülh quruculuğu (peacebuilding) anlayışları münaqişə tədqiqatları ilə əlaqəlidir. Sülh yaratma və sülhüqoruma münaqişə idarəetməsi və münaqişə həlli vasitələri sayılır. Sülh quruculuğu isə daha çox münaqişə həlli və münaqişə transformasiyası ilə əlaqədardır. Sülh quruculuğu sülhyaratma və sülhqorumadan konfliktə yanaşmada reaktiv deyil, proaktiv olmasına görə fərqlənir (3, s.7).

Sülh tədqiqatlarının banisi hesab edilən C.Qaltunq sülh quruculuğunu "konfliktə qayıtmaqdan çəkinmək məqsədilə sülhü gücləndirmək və bərkitmək üçün strukturları müəyyənləşdirmək və dəstəkləmək aktı" kimi adlandırırdı və onu pozitiv sülhün tətbiq oluna bilməsi üçün vasitə kimi fikirləşmişdir (4, s.6-8). Müasir mənada isə sülh quruculuğu uzlaşma, münaqişə həlli üçün potensialı inkişaf etdirmək və dayanıqlı sülh istiqamətində çalışmaq üçün ehtiyacı nəzərə alan post-münaqişə parametrlərinə işarə edən yanaşmadır.

Termin ilk dəfə münaqişə həlli leksikonuna 1995-ci ildə BMT-nin Sülh naminə Gündəlik sənədinin çap olunması ilə daxil olmuşdur. Bu sənəddə post-münaqişə sülh quruculuğu insanlar arasında rifah və inamı yüksəltmək və sülhü möhkəmlətməyə xidmət edəcək strukturları müdafiə etmək və müəyyən etməyə ətraflı cəhdlər kimi təsvir olunur (3, s.8). NATO terminologiyasında isə sülh quruculuğu "insanların uzunmüddətli ehtiyaclarına və konfliktin dərində olan səbəblərinə

müraciət etmək üçün tamamlayıcı diplomatik, sivil və vacib olarsa, hərbi vasitələri səlahiyyətləndirən sülhə dəstək əməliyyatıdır" (5, s.20).

Sülh quruculuğunun subyektlərinə beynəlxalq hökumətlərarası təşkilatlar (BMT, Avropa İttifaqı, Afrika İttifaqı və s.), milli inkişaf agentlikləri (Birləşmiş Krallıq Beynəlxalq İnkişaf naminə Şöbə, ABŞ-ın Beynəlxalq İnkişaf naminə Agentliyi və s.), qeyri-hökumət təşkilatları (Berqof Fondu, Beynəlxalq Böhran Qrupu, Oksfam, Beynəlxalq Qırmızı Xaç Komitəsi və s.) və s. aktorlar daxildir (6, s.312-314). BMT yüksək profilə malik sülh quruculuğu aktorudur. BMT-nin sülh quruculuğu arxitekturasının əsası (Sülh Quruculuğu Komissiyası, Sülh Quruculuğuna Dəstək Ofisi və Sülh Quruculuğu Fondundan ibarət) 2005-ci il Dünya Sammitinin Nəticə Sənədinin təsdiqlənməsindən sonra qoyulmuşdur. Lakin bu arxitektura sülh quruculuğunun qarşılaşdığı çağırışlara cavab verməkdə özünü təsdiq edə bilməmişdir (7, s.7).

R.Paris "Müharibənin sonunda" kitabında 1989-1999-cu illər arasında on dörd sülh quruculuğu əməliyyatını tənqid etmişdir. Müəllifin gəldiyi nəticəyə görə liberallaşma prosesi zorakılığın alovlanmasına kömək edə bilər. O, Syerro Leone, Kosovo və Şərqi Timorda həyata keçirilən sülh quruculuğu əməliyyatlarını nisbətən uğurlu nümunələr hesab edir, Ruanda, Kamboca, İraq və Əfqanıstan nümunələrinin uğursuzluqlarını vurğulayır (9, s.116).

Dəyişən qlobal siyasi və iqtisadi mühit neoliberal sülh quruculuğu proseslərinin legitimliyinin zəifləməsinə səbəb olur. Rusiya və Çin kimi dövlətlərin və Afrika İttifaqı kimi regional təşkilatın yüksəlişi Qərb dövlətlərinin üstünlük təşkil etdiyi neoliberal konsensusa təsir edir (9, s.116). Bu da sülh quruculuğunun yeni modellərinin irəli sürülməsinə səbəb olmuşdur.

Hibrid sülh quruculuğu modeli liberal və yerli sülh quruculuğu təcrübələrini özündə birləşdirir. Hibrid modelin müsbət cəhətləri inklüzivliyin təmin olunması və "aşağıların iştirakı" yanaşmasının dəstəklənməsidir. Bu sülh modelinə uğurlu nümunə kimi Somalilənd göstərilir. İdarəçiliyə cəlb olunmuş döyüş lordları güclərini mənfi istiqamətdə istismar etdiklərinə görə Əfqanıstan nümunəsi uğursuz model kimi dəyərləndirilir. Hibrid model eyni zamanda insan hüquqlarının təmin olunmasında problemlərin yaranmasına şərait yarada bilər. Mühafizəkar dəyərləri öndə tutan ağsaqqalar və ya rəislər əhalinin bəzi qruplarının siyasi, iqtisadi və sosial həyatda iştirakına maneələr yarada bilər (8, s.41-44).

O.Riçmond neoliberal sülh quruculuğuna alternativ kimi "sərbəstləşdirici" sülh quruculuğu paradiqmasını irəli sürmüşdür. Həm liberal, həm də hibrid modeli özündə birləşdirən bu paradiqmada lokal aktorların iştirakına üstünlük verilməsi qeyd olunur (9, s.119). Paradiqma eyni zamanda cəmiyyətin ehtiyaclarını təmin edəcək sistemin yaradılmasını vurğulayır. Ancaq hal-hazırda praktiki olaraq bu paradiqmanın nümunələrini müşahidə etmək olmur.

R.Paris "liberallaşmadan əvvəl institutlaşma" strategiyasını təklif etmişdir. Bu strategiya yerli institutların yaradılması və gücləndirilməsinə qədər demokratik və bazar iqtisadiyyatı islahatlarının təqdim olunmasını gecikdirməklə liberallaşmanın qeyri-sabit edən təsirlərinin minimallaşdırılması ilə birlikdə təsirli xarici müdaxiləni şərt qoyur (9, s.122).

Konsensus yolu ilə qərar qəbuletmə, insan-ətraf mühit sistemlərinin və balansının bərpa olunması, ənənəvi rituallar və qarşılıqlı kompensasiya və hədiyyələrdən ruhlanmış yerli sülh quruculuğu prosesləri sülhün xarici ideologiyaları ilə uyğunsuz və ondan çıxarılmış kimi görünür və dəstəklənir (9, s.124). Lokal sülh quruculuğuna uğurlu nümunə kimi Cənubi Afrika Respublikası göstərilir. Bu kontekstdə Ubuntu mədəniyyətinin rolu qeyd edilir.

Bundan başqa, sülh quruculuğuna yeni yanaşma kimi adaptiv sülh quruculuğu əlavə olunmuşdur. Bu yanaşmada konflikt baş verən ərazidə dəyişikliklərə uyğunlaşmaq qabiliyyətinin artırılması məsələsi ön plandadır (10, s.16). Adaptiv sülh quruculuğunda aktor "prosesi asanlaşdırma" funksiyasını həyata keçirir. Bu sülh quruculuğu yanaşması aktorlar tərəfindən strategiya kimi təqdim olunur (11, s.51).

**Nəticə**

Sülh quruculuğunun digər münaqişə həlli vasitələrindən fərqi "aşağıların iştirakı" və pozitiv sülh yanaşmalarına üstünlük verməsidir. Ancaq hələ də anlayışın izah olunması ilə bağlı bu sahənin mütəxəssisləri arasında ziddiyyətlər davam edir. BMT tərəfindən dünya gündəminə gətirilmiş bu termin həm konseptual baxımdan, həm də praktiki baxımdan ciddi boşluqlarla səciyyələnir.

Dəyişən dünya reallıqları sülh quruculuğuna da təsir etmişdir. Sərbəstləşdirici və adaptiv sülh quruculuğu anlayışları kifayət qədər nəzəri və praktiki əsasa sahib olmadığı üçün sülh quruculuğunun müasir strategiyasına daxil edilə bilər. Bu iki anlayışın inkişaf etdirilməsi vacibdir. Hibrid və lokal sülh quruculuğu modellərinin isə bir sıra uğurları və uğursuzluqları vardır. Hal-hazırda liberal sülh quruculuğuna əsas alternativlər kimi bu iki konsepsiyanı irəli sürmək olar. Bu modellərin praktikasının uğurlu olması üçün beynəlxalq ictimaiyyətin dəstəyi mühümdür və bu yöndə fəaliyyətin təkmilləşdirilməsi lazımdır.

## ƏDƏBİYYAT:


1. Bercovitch, J., Jackson R. (2018). Yirmi birinci yüzyılda çatışma çözümü: ilkeler, yöntemler ve yaklaşımlar. Ankara, Adres Yayınları.
2. Özerdem A. (2013) Barış inşası: kuram ve uygulaması. Ankara, Nobel Akademik Yayıncılık.
3. Waldman T. , Conflict resolution, peacebuilding and youth: [Electron resource] / academia.edu. – 2009. – URL: https://www.academia.edu/3200682/Conflict_Resolution_Peacebuilding_and_Youth.
4. Cravo T. A. (2017) . Peacebuilding : assumptions, practices and critiques // JANUS. NET e-journal of International Relations. Vol. 1, no. 1. p. 4-20.
5. Smith, D., Towards a strategic framework for peacebuilding: getting their act together: [Electron resource] / prio.org. Oslo, 2004. – URL: https://www.prio.org/publications/153&ved=2ahUKEwiRycL1wJrAhWSxIsKHUYXD6cQFnoECAgQAQ&usg=AOvVaw328dXt8UcQXwXClds0GP2I.
6. Ginty R. M. (2013). Routledge handbook of peacebuilding . New York, Routledge Taylor & Francis Group.
7. International Peace Institute, Task forces on strengthening multilateral security capacity : [Electron resource] / reliefweb.int. – New York, 2009. – URL: https://reliefweb.int/report/world/peace-operations-task-forces-strengthening-multilateral-security-capacity&ved=2ahUKEwj53PmGy5r-AhVjsYsKHQj5B7IQFnoECAsQAQ&usg=AOvVaw1ngTleW7TjRfy9Z66xeRc3.
8. Anam S. (2018). Peacebuilding: the shift towards a hybrid peace approach // Global & Strategis. Vol. 9, No. 1. p. 37-48.
9. Matyok T., Senehi J., Byrne S. (2011). Critical issues in peace and conflict studies: theory, practice and pedagogy. Lanham: Lexington Books.
10. Coning, C. (2018). Adaptive peacebuilding // International Affairs. Volume 94, issue 2. p. 301-317.
11. Uesugi Y., Deekeling A., Umeyama S.S., Colbert L.M. (2021). Operationalisation of hybrid peacebuilding in Asia: from theory to practice. Gewerbestrasse: Palgrave Macmillan.

## РЕЗЮМЕ

***Эльмар ИСМАИЛЗАДЕ***

***Перспективы развития миростроительства как одного из инструментов разрешения международных конфликтов***

***Ключевые слова:*** *конфликты, исследования конфликтов, исследования мира, ООН, международные, либеральные*

В статье рассматриваются инновации в области разрешения конфликтов путем миростроительства и изменения парадигмы в направлении трансформации миростроительства. Разрешение конфликтов сформировалось с развитием концепции управления конфликтами. Миростроительство — это новый подход к исследованиям в области мира. Миростроительство является одним из новых инструментов урегулирования конфликтов.

Статья состоит из трех частей. В первом абзаце описаны элементы и современные инструменты концепции урегулирования конфликтов.

Во втором пункте были отмечены элементы, причины неудач и проблемы нынешней концепции миростроительства.

В заключение были выдвинуты концептуальные проблемы миростроительства, оценены новые подходы и утверждено решение проблем.

Научная инновация исследования заключается в проведении сравнительного анализа новых подходов к миростроительству. Исследование имеет важное значение с точки зрения реализации в области международной безопасности, особенно исследований конфликтов и мира.



## ABSTARCT

***Elmar ISMAYILZADA***

***Development Perspectives of Peacebuilding as One of the Tools of International Conflict Resolution***

***Keywords:*** *conflict, conflict studies, peace studies, UN, international, liberal*

The article deals with innovation to field of conflict resolution by peacebuilding and paradigm changes towards the transformation of peacebuilding. The Conflict resolution has formed with development of conflict management concept. The Peacebuilding is new approach in peace studies. The Peacebuilding ise one of the new tools of conflict resolution.

Article consists of three parts. In First paragraph, elements and current tools of the conflict resolution concept have been described.

In Second paragraph, elements, failure causes and challenges of current time of peacebuilding concept have been noted.

In conclusion, conceptual problems of peace building have been put forward, new approaches have been assessed and solution to problems has been asserted.

The scientific innovation of the research includes to do comparative analysis of new approaches of peacebuilding. The Research is significant in terms of implementation to field of international security, especially conflict and peace studies.